## MİLLƏT ATASI

***Ümummilli liderimiz Heydər Əliyevin əziz xatirəsinə həsr edirəm***

Vətənin çox ağır gün-saatında,
Yarandı Vətəni bölmək xətası.
Tanrım pay göndərdi Heydər adında,
Heydər baba, oldun millət atası.

Tökülən qanları dayandıraraq,
Yatmış vicdanları oyandıraraq,
Dar gündə xalqına hayan duraraq,
Heydər baba, oldun millət atası.

Ölkəmiz əbədi müstəqil deyə,
Üç rənqli bayrağı ucaltdın göyə,
Durdun xalqa yiyə, xalq sənə yiyə,
Heydər baba, oldun millət atası.

Zəkanla susdurdun ölüm silahın,
Qoydun təməlini parlaq sabahın,
Hifz etdi qəsdlərdən səni Allahın,
Heydər baba, oldun millət atası.

Məşələ döndərdin od nəfəsini,
Dünyaya çatdırdın xalqın səsini,
Dincliyə çağırıb Yer kürəsini,
Heydər baba, oldun millət atası.

Keçmişi, bu günü, sabahı gördün,
Ömrünü Vətənə, xalqına verdin,
Köçdün, ürəyində Qarabağ dərdin,
Heydər baba, oldun millət atası.

Vətəni bilərək könlünün quşu,
Döndərdin bahara tufanlı qışı,
Şərəflə yaşadın hər ötən yaşı,
Heydər baba, oldun millət atası.

Qorxmadan çapdırdın qeyrət atını,
Şəhidtək qeyb etdin öz həyatını,
Tarixə döndərib ölməz adını,
Heydər baba, oldun millət atası.

İdrakın yol açdı Bakı-Ceyhana,
Tanıtdın Vətəni, xalqı cahana,
Ömrünü pay verib Azərbaycana,
Heydər baba, oldun millət atası.

Vətəni tutaraq canından baha,
İlhamla yol açdın nurlu sabaha,
Ruhunla qovuşdun haqqa, Allaha,
Heydər baba, oldun millət atası.

***Oqtay Zəngilanlı***
***Savalan. – 2007. – 15-17 may.***